

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Nəxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 11 (22.922)

19 yanvar 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## 2017-ci ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində 2017-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.***

İclası Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, müasir cəmiyyətdə elektron vasitələrdən istifadə günbəgün genişlənir. İnsanlar internet resurslarından istifadə yolu ilə geniş məlumat əldə edirlər. Bunun nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin apardığı Hüquqi Aktların Dövlət Reyestrindən istifadə edənlərin sayı artır. Ötən il reyestrə 154 hüquqi akt daxil edilib. Daxil edilən hüquqi aktların 78-i normativ-hüquqi, 75-i qeyri-normativ-hüquqi, 1-i isə normativ xarakterli aktlardır.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamından irəli gələn vəzifələrə uyğun olaraq 2017-ci ilin may və noyabr aylarında Naxçıvan Dövlət Universiteti Dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələri nazirliyin aparatında, Penitensiar Xidmətdə, Məhkəmə Ekspertizası Mərkəzində, Naxçıvan bələdiyyəsində olublar.

Vurğulanıb ki, nazirliyin İcra xidmətinin bölmə və qruplarının icraatına ötən il 3872 icra işi daxil olub, bunlardan 952 işin icrası başa çatdırılıb, 2561 iş icraya yönəlib, 100 iş geri qaytarılıb, 185 iş ərazi aidiyyəti üzrə göndərilib, 8 işin icraatı dayandırılıb, 66 iş üzrə isə axtarış qərarı verilib.

Nazir bildirib ki, Qeydiyyat və notariat şöbəsi tərəfindən 2017-ci il ərzində 1 qeyri-kommersiya hüquqi şəxs qeydiyyata alınıb, 5 qeyri-kommersiya hüquqi şəxs reyestrdən çıxarılıb. Qeyri-kommersiya hüquqi şəxslərin reyestrinə 3 dəyişiklik edilib. Vətəndaşlıq vəziyyəti aktları ilə bağlı təkrar şəhadətnamələrin verilməsi və sənədlərin leqallaşdırılması ilə bağlı 21 min 58 manat rüsum dövlət büdcəsinə ödənilib. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrə uyğun olaraq hesabat dövründə cəzaçəkmə müəssisəsində məhkumlar müxtəlif kurslara cəlb olunublar. Məhkumların əməyə cəlb olunması məqsədilə 17 məhkum əməyi ödənilməklə təsərrüfat işlərinə, 22 məhkum "Yaradıcılıq və istehsalat" binasında müxtəlif əl işlərinin düzəldilməsi işinə, eləcə də 8 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsində cəzaçəkən 10 nəfər digər ödənişli işlərə cəlb edilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində keçirilən kollegiya iclasını maliyyə naziri Səbuhi Məmmədov açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, 2017-ci ildə muxtar respublikada bütün dövlət proqramlarının və layihələrin uğurla icrasına, investisiya proqramında elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət və idman obyektlərini özündə birləşdirən sosial layihələrin, içməli su və kanalizasiya sistemlərinin yaradılması, kənd yollarının yenidən qurulması və yeni yolların inşası, meliorasiya və irriqasiya tədbirlərinin genişləndirilməsi işlərinin səmərəli maliyyələşdirilməsinə nail olunub.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinin 2017-ci ildə gəlirləri 71 milyon 650 min manat təyinata qarşı 79 milyon 856 min 165 manat və ya 111,5 faiz icra olunmaqla, büdcəyə 8 milyon 206 min 165 manat artıq vəsait daxil olub.

Ötən il büdcə gəlirlərinin 82,6 faizi və ya 65 milyon 985 min 695 manatı Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi, 9,5 faizi və ya 7 milyon 580 min 514 manatı Dövlət Gömrük Komitəsi tərəfindən toplanılmış daxilolmalardan, 7,3 faizi və ya 5 milyon 803 min 298 manatı dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən, 0,6 faizi və ya 486 min 658 manatı isə digər mənbələr hesabına olunub.

Diqqətə çatdırılıb ki, ötən ilin büdcə gəlirlərinin tərkibində mərkəzləşdirilmiş büdcə gəlirləri 103,7 faiz təşkil etməklə, Avtomobil Yolları Məqsədli Büdcə Fonduna daxil olan vəsait istisna olmaqla, Naxçıvan şəhəri üzrə 110,6, Şərur rayonu üzrə 110,8, Babək rayonu üzrə 111,0, Ordubad rayonu üzrə 110,9, Culfa rayonu üzrə 110,5, Şahbuz rayonu üzrə 109,0, Kəngərli rayonu üzrə 110,5, Sədərək rayonu üzrə 110,2 faiz icra olunub. Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 2017-ci ildə 443 milyon 139 min 247 manat təyinata qarşı 439 milyon 624 min 28 manat və ya 99,2 faiz icra olunub. 2017-ci il ərzində büdcə təşkilatlarına təqdim etdikləri xərc sifarişləri üzrə xəzinədarlıq orqanları tərəfindən qəbul edilmiş öhdəliklər tam və vaxtında maliyyələşdirilib.



Vurğulanıb ki, 2017-ci ildə büdcə xərclərinin 74,8 faizi və ya 328 milyon 728 min 928 manatı cari xərclərə, 25,2 faizi və ya 110 milyon 895 min 100 manatı isə əsaslı xərclərə yönəldilib. 2016-cı ilin analoji rəqəmi ilə müqayisədə ötən il əsaslı xərclərə 8 milyon 119 min 833 manat, yaxud 7,9 faiz artıq vəsait xərclənib. Əsaslı vəsait qoyuluşu xərclərinin böyük hissəsi muxtar respublikada quruculuq işlərinin aparılmasına, eyni zamanda infrastrukturun yenilənməsi layihələrinin maliyyələşdirilməsinə yönəldilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində keçirilən kollegiya iclasını nazir Elşad Əliyev açaraq məruzə edib.***

Nazir bildirib ki, ötən il ərzində meliorasiya, irriqasiya tədbirlərinin gücləndirilməsi, lizinq xidmətinin genişləndirilməsi, taxıl və soyuducu anbarların tutumunun artırılması, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin işə salınması kənd təsərrüfatının sürətli inkişafına əlverişli şərait yaradıb.

Qeyd edilib ki, 2017-ci ildə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə muxtar respublikaya 273 ədəd müxtəlif adda texnika və avadanlıqlar gətirilib, ötən dövrlərdə gətirilənlər də daxil olmaqla, 233 ədəd texnika və avadanlıq lizinq yolu ilə icarəyə verilib, 8 ədədi isə nağd yolla satılıb. Bundan əlavə, məhsul istehsalçılarına 5 min 338 ton mineral gübrə verilib. Bəhs olunan dövrdə kartof əkininin mütəşəkkil həyata keçirilməsi məqsədilə muxtar respublikaya keyfiyyətli toxumluq kartof gətirilərək əkinlər həyata keçirilib. Görülmüş tədbirlər nəticəsində 3 min 183 hektar kartof sahəsindən 48 min 982 ton məhsul tədarük olunub. Bununla yanaşı, qarğıdalı əkininə də maraq xeyli artıb, 1667 hektar ərazidə əkin həyata keçirilib. Əkin sahələrindən 12 min 573 ton məhsul yığılıb ki, bu da 2016-cı illə müqayisədə 20 faiz çoxdur. Bitkiçilik məhsulları içərisində taxılçılıq öz üstün mövqeyini qoruyub, 31 min 632 hektar taxıl əkini sahəsindən 93 min 419 ton məhsul yığılıb. Ötən il ərzində əkin sahələrindən 84 min 722 tondan çox tərəvəz, meyvə bağlarından isə 53 min 69 tondan çox məhsul götürülüb.



Bildirilib ki, tütünçülüyün inkişafı məqsədilə Kəngərli rayonu ərazisində Tütünyetişdirmə Mərkəzi yaradılıb, uzunmüddətli fasilədən sonra ilk dəfə olaraq 9 hektar sahədə tütün əkini aparılaraq 11 tondan çox quru tütün istehsal olunub. Cari ildə bu istiqamətdə işlər daha da genişləndiriləcək.

Hesabat dövründə arıçılıqla məşğul olanlara 50 min manat həcmində kreditlər verilib, 3 arıçılıq təsərrüfatı və mum vərəqi istehsalı sahəsi yaradılıb. Ötən il balıqçılıq təsərrüfatlarının sayı 15-ə çatdırılıb ki, bu da əhalinin balıq ətinə olan tələbatının ödənilməsində mühüm rol oynayıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin kollegiya iclasında çıxış edən vergilər naziri, baş vergi xidməti müşaviri Azər Nağıyev bildirib ki, ötən illərdə olduğu kimi, yola saldığımız ildə də muxtar respublikamızın sosial-iqtisadi həyatının bütün sahələrində davam edən yüksəliş vergilər üzrə müəyyənləşdirilmiş proqnozların icrasına da şərait yaradıb.***



Qeyd olunub ki, 2017-ci ildə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi üzrə proqnoz 106,2 faiz icra edilib ki, bu da 2016-cı illə müqayisədə 2 milyon 336 min 800 manat və ya 2,7 faiz çoxdur. Eyni zamanda yerli vergi orqanlarının hər biri üzrə müəyyən olunmuş proqnoza artıqlaması ilə əməl edilib.

Vurğulanıb ki, rayonlarda kiçik və orta sahibkarlığın fəaliyyətinin genişlənməsi bu sahədə vergi daxilolmalarının da artımına səbəb olub. Buna görədir ki, özəl sektordan vergi daxilolmaları 2016-cı illə müqayisədə Ordubad rayonu üzrə 1,8, Culfa rayonu üzrə 1,1, Kəngərli rayonu üzrə 2,4 dəfə artıb. Ümumilikdə, muxtar respublika üzrə daxil olmuş vəsaitlərin 37 faizi dövlət sektorunun, 63 faizi isə özəl sektorun payına düşür.

Nazir diqqətə çatdırıb ki, kameral vergi yoxlamalarına diqqətin daha da artırılması nəticəsində hesabat dövrü ərzində vergiödəyiciləri tərəfindən 27 min 157 bəyannamə təqdim edilib ki, bunun 27 min 140-ı, yəni 99,9 faizi elektron formada olub. 2017-ci ildə aktiv vergiödəyicilərinin sayı 7256 olmaqla, ümumi vergiödəyicilərinin sayında xüsusi çəkisi (kənd təsərrüfatı istisna olmaqla) 27,1 faiz olub, 2016-cı ilə nisbətən 1,5 dəfə və ya 2488 vahid artıb.

Bildirilib ki, nağdsız əməliyyatların genişləndirilməsi məqsədilə muxtar respublikada aparılmış təbliğat tədbirlərinin nəticəsi olaraq 2017-ci ildə nağdsız hesablaşmaların həcmi 30 milyon 799 min manat olub ki, bu da əvvəlki illə müqayisədə 3 milyon 97 min manat çoxdur.

Sahibkarlıq subyektləri tərəfindən vergilərin vaxtında ödənilməsinə və ödənilən əməkhaqlarının reallığı əks etdirməsi vəziyyətinə nəzarətdən də bəhs edən nazir qeyd edib ki, işəgötürən fiziki şəxslər tərəfindən əməkhaqqından ödənilən gəlir vergisi məbləği hesabat dövründə 126 min 650 manat olub. Bu da 2016-cı illə müqayisədə 12 min manatdan çox deməkdir.

Vurğulanıb ki, Vergilər Nazirliyinin və yerli vergi orqanlarının qeydiyyat strukturları tərəfindən "bir pəncərə" qeydiyyat sistemi vasitəsilə hesabat dövrü ərzində 43 kommersiya hüquqi şəxs dövlət qeydiyyatına, həmçinin 2171 fiziki şəxs sahibkarlıq uçotuna alınıb. Qeydiyyata alınan sahibkarlıq subyektlərinin 67 faizi muxtar respublikanın rayonlarının payına düşür. Həmçinin öz əmlaklarını icarəyə verərək gəlir əldə edən 6489 fiziki şəxs tərəfindən 169 min 410 manat vergi məbləğinin və repetitorluq fəaliyyəti ilə məşğul olan şəxslərin vergiyə cəlb edilməsi ilə 166 repetitor tərəfindən 2406 manat vəsaitin büdcəyə ödənilməsi təmin edilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində keçirilən kollegiya iclasını giriş sözü ilə nazir Hafiz Yaqubov açıb.*

Bildirilib ki, 2017-ci ildə sosial-iqtisadi inkişafın bütün sahələrində olduğu kimi, ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən əhalinin rifahının yaxşılaşdırılması naminə səmərəli istifadə edilməsi sahəsində də dinamik inkişaf saxlanılıb. Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi, təbii resursların iqtisadi inkişaf məqsədilə səmərəli istifadə olunması və əlverişli ekoloji mühitin yaradılması üçün dövlət ekoloji siyasəti uğurla davam etdirilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nda nazirliyin funksiyasına aid olan tədbirlərin icrası həyata keçirilib və müvafiq hesabatlar hazırlanaraq aidiyyəti dövlət qurumlarına təqdim edilib.

Qeyd olunub ki, muxtar respublika ərazisində torpaqların təbii və antropogen təsirlər nəticəsində çirklənməsinin öyrənilməsi üçün 21 monitorinq aparılıb və elmi əsaslarla qiymətləndirilib. Muxtar respublika ərazisində mövcud olan meşələrdə və digər təbiət ərazilərində yanğın təhlükəsizliyinin təmin edilməsi, xüsusilə isti yay aylarında bu tədbirlərin icrası məqsədilə nazirlik Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi ilə birgə tədbirlər planına uyğun olaraq fəaliyyət göstərib.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq dağlıq və orta dağlıq ərazilərdə meyvəçiliyin inkişaf etdirilməsi, həmin ərazilərin iqlim və torpaq xüsusiyyətlərinə uyğunlaşdırılmış ağacların, tinglərin yetişdirilməsi sahəsində nəzərdə tutulan tədbirlər milli park və yasaqlıq ərazilərində icra edilib, bu məqsədlə 7,5 hektar sahədə meyvə bağları salınıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# 2017-ci ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində keçirilən kollegiya iclasında komitənin sədri Bəxtiyar İsmayılov məruzə ilə çıxış edib. Bildirilib ki, 2017-ci il komitə üçün, xüsusilə əlamətdar il olub. Belə ki, ötən ilin avqust ayında komitə üçün müasir memarlıq üslubunda inşa olunmuş yeni inzibati bina istifadəyə verilib, əməkdaşlar üçün lazımi iş şəraiti yaradılıb.

Diqqətə çatdırılıb ki, əkinəyararlı torpaqlardan istifadənin və əhaliyə göstərilən xidmətlərin vəziyyəti barədə 2015-ci il mayın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədə reklam daşıyıcılarının, elan və digər informasiya xarakterli lövhələrin qanunvericiliyə uyğun yerləşdirilməsinə nəzarət edilməsi, bu sahədə mövcud problemlərin aradan qaldırılması, aidiyyəti qurumlar tərəfindən xidmət mərkəzlərinin qorunub saxlanılmasına, eyni zamanda vaxtı keçmiş məhsulların satışının qarşısının alınmasına nəzarətin gücləndirilməsi barədə verilmiş tapşırıqların icrasını təmin etmək məqsədilə 95 xidmət mərkəzinə 165 halda baxış keçirilib. Qanunvericiliyin tələblərinə uyğun olmadığından 25 informasiya xarakterli lövhənin istifadəsi qadağan edilib.

Bundan əlavə, 106 məktəbin bufetində, 10 təhsil müəssisəsinin bufet və yeməkxanasında, 18 məktəbəqədər tərbiyə müəssisəsində monitorinqlər, 19 səhiyyə müəssisəsinin yeməkxanasında yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər aparılıb, 56 məktəbin bufetində, 8 təhsil müəssisəsinin bufet və yeməkxanasında, 9 məktəbəqədər tərbiyə müəssisəsinin yeməkxanasında aşkar olunmuş nöqsanlar aradan qaldırılıb. Təhsil və məktəbəqədər tərbiyə müəssisələri üçün hazırlanmış 69 yemək menyusu komitə ilə razılaşdırılıb. Məktəbli və tələbə geyim formaları istehsal edən 2 təsərrüfat subyektində parçalar 3 halda, 17 satış obyekti tərəfindən idxal olunmuş məktəbli ləvazimatları 29 halda keyfiyyəti və uyğunluğu təsdiq edən sənədləri yoxlanıldıqdan sonra sertifikatlaşdırılıb.

Vurğulanıb ki, ötən il ərzində, ümumilikdə, standartların tələblərinə uyğun olmayan 5896 manat dəyərində yararlılıq müddəti bitmiş, keyfiyyətsiz və ya kontrafakt məhsul satışdan çıxarılıb. Komitənin əsas fəaliyyət istiqaməti qismində istehsal və idxal olunan məhsulların keyfiyyətinə nəzarət işi, xüsusilə diqqətdə saxlanılıb, ümumilikdə, il ərzində məhsulların 1559 halda keyfiyyət göstəricilərinin yoxlanılması təmin edilib. 2017-ci ildə 1042 ədədi ərzaq məhsullarına, 1037 ədədi qeyri-ərzaq məhsullarına, 4 ədədi isə xidmət sahəsinə aid olmaqla, ümumilikdə, 2083 uyğunluq sertifikatı verilib.

Qeyd olunub ki, ötən il komitənin Metrologiya şöbəsi tərəfindən 20 min 749 ədəd ölçmə vasitəsinin yoxlanılması təmin olunub, əmtəə nişanına dair 48 şəhadətnamə, sənaye nümunəsinə dair 2 patent reyestrə daxil edilərək iddiaçılara təhvil verilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində keçirilən iclasda idarənin sədri Elvin Axundov bildirib ki, 2017-ci il ərzində bank qurumları fəaliyyətlərini verilən tapşırıqların icrası istiqamətində qəbul edilmiş tədbirlər planına uyğun olaraq qurublar. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 yanvar 2018-ci il tarixə muxtar respublika iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 101 milyon 414 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 2 milyon 343 min manat, uzunmüddətli kredit qoyuluşu isə 99 milyon 71 min manat təşkil edib.

Qeyd olunub ki, muxtar respublika əhalisinə verilmiş 13 milyon 407 min manat məbləğində şəxsi istehlak kreditləri, daşınmaz əmlak alınması üçün 12 milyon 226 min manat məbləğində verilmiş ipoteka kreditləri vasitəsilə vətəndaşların şəraitinin yaxşılaşdırılması ilə bərabər real sektor da dəstəklənib. Bank və kredit təşkilatları tərəfindən 2017-ci il ərzində 31 milyon 314 min manat kredit verilib ki, bunun da 4 milyon 590 min manatını qısamüddətli, 26 milyon 724 min manatını uzunmüddətli kreditlər təşkil edib. Kredit təşkilatları tərəfindən 2017-ci il ərzində 236 nəfər fiziki və hüquqi şəxsə 284 ədəd olmaqla, 2 milyon 553 min 160 manat dəyərində lizinqə verilmiş kənd təsərrüfatı texnikası üzrə lizinq xidməti göstərilib. Hesabat dövründə verilmiş kreditlərin 2 milyon 256 min manatını kənd təsərrüfatı kreditləri təşkil edib.



Diqqətə çatdırılıb ki, banklar tərəfindən 1 yanvar 2018-ci il tarixə 2214 hüquqi, 62 min 270 fiziki şəxs olmaqla, 64 min 484 müştəriyə xidmət göstərilib. Xidmət olunan hesabların 55 min 743-ü işlək hesab olub ki, onların 1465-i hüquqi, 54 min 278-i isə fiziki şəxslərdir. 2017-ci il ərzində 208-i hüquqi, 24 min 924-ü isə fiziki şəxs olmaqla, 25 min 132 müştəriyə yeni bank hesabı açılıb. Açılmış bank hesablarının 25 min 17-si fəaliyyət göstərir ki, onlardan 207-si hüquqi, 24 min 810-u fiziki şəxslərdir.

Nağdsız ödəniş sistemlərinin fəaliyyətinə toxunan Elvin Axundov bildirib ki, 2017-ci il ərzində 51 ədəd POS-terminal quraşdırılaraq onların sayı 1 yanvar 2018-ci il tarixə 1260 ədədə çatdırılıb. POS-terminalların sayı 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 58 ədəd artıb. Banklar tərəfindən POS-terminalların quraşdırılması hazırda davam etdirilir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda keçirilən kollegiya iclasını fondun sədri Əli Quliyev açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, 2017-ci ildə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu müvafiq dövlət orqanları ilə birlikdə işçilərlə işəgötürənlər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət edilməsi zamanı 573 sahibkarlıq obyektində (54 hüquqi, 519 fiziki şəxs) 443 yeni əmək müqaviləsi bağlanıb, 1475 əmək müqaviləsində isə əməkhaqqı artırılıb.

Qeyd olunub ki, 2017-ci ildə fondun hesabına 53 milyon 300 min manat proqnoza qarşı, 68 milyon 507 min 400 manat vəsait daxil olub, proqnoz tapşırıqlara 128,5 faiz əməl edilib. Daxil olan vəsait nəzərdə tutulan məbləğdən 15 milyon 207 min 400 manat, yaxud 28,5 faiz çox, 2016-cı ilin müvafiq dövründə yığılan vəsaitdən isə 2 milyon 521 min 880 manat, yaxud 3,8 faiz çox olub. Məcburi dövlət sosial sığorta haqlarının 45 milyon 861 min 150 manatı, yaxud 66,9 faizi büdcə təşkilatlarının, 22 milyon 646 min 250 manatı, yaxud 33,1 faizi isə qeyri-büdcə təşkilatlarının hesabına olub.

Diqqətə çatdırılıb ki, hesabat dövründə Azərbaycan Respublikası Prezidentinin "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" imzaladığı 2017-ci il 21 yanvar tarixli Sərəncamına əsasən bu kateqoriyadan olan əmək pensiyalarının sığorta hissəsi 12,4 faiz artırılıb. İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə maddi yardım verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 aprel tarixli Sərəncamına müvafiq olaraq muxtar respublika üzrə bu kateqoriyadan olan pensiyaçılara, ümumilikdə, 564 min 500 manat vəsait ödənilib ki, həmin pensiyaçılardan 31 nəfərə 1000, 1067 nəfərə isə 500 manat məbləğində birdəfəlik maddi yardım ödənilib.

Bundan əlavə, 2017-ci ildə fondun yerli orqanları tərəfindən 1187 nəfərə yaşa, 341 nəfərə əlilliyə, ailə başçısını itirməyə görə, ümumilikdə, 2099 nəfərə əmək pensiyası təyin edilib. Əvvəlki dövrlərdə olduğu kimi, 2017-ci ildə də əmək pensiyalarının plastik bankomat kartları ilə ödənilməsi üçün müvafiq işlər davam etdirilib, pensiyaçıların 100 faizi plastik kartlarla təmin edilib.

Fondun sədri bildirib ki, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq muxtar respublikada fərdi uçot sisteminin qurulması ilə əlaqədar işlər davam etdirilib. Hesabat dövründə 5435 sığortaolunan sosial sığorta şəhadətnaməsi ilə təmin olunub. Beləliklə, fərdi uçot sistemində qeydə alınaraq sosial sığorta şəhadətnaməsi alan sığortaolunanların sayı ilin əvvəli ilə müqayisədə 2,7 faiz artaraq 168 min 935 nəfərə çatıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.



***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində keçirilən iclasda Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov məruzə ilə çıxış edib.***

Baş direktor bildirib ki, sığorta işinin daha da təkmilləşdirilməsi məqsədilə ötən il Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi tərəfindən muxtar respublikanın bütün rayon (şəhər) İcra hakimiyyətləri ilə birlikdə "Sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələr" mövzusunda müşavirələr keçirilib. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta olunmayan sürücülərin icbari sığortaya cəlb olunması məqsədilə Dövlət Sığorta Agentliyi Dövlət Yol Polisi əməkdaşları ilə birlikdə müntəzəm reydlər keçirib.

Qeyd olunub ki, görülmüş işlərin nəticəsində ötən il Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi üzrə hüquqi və fiziki şəxslərdən sığorta tədiyələrinin toplanması həcmi 2016-cı illə müqayisədə, ümumilikdə, 26,2 faiz, qeyri-həyat (ümumi) sığortası üzrə sığorta tədiyələrinin toplanması həcmi 29,8 faiz artıb. 2016-cı ilin yekunları ilə müqayisədə 2017-ci ildə, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə toplanmış sığorta tədiyələrinin həcmi 4,2, Yaşıl Kart sığortası üzrə toplanmış sığorta tədiyələrinin həcmi 77,7, daşınmaz əmlakın icbari sığortası üzrə toplanmış sığorta tədiyələrinin həcmi isə 7,7 faiz artıb.

İclasda kənd təsərrüfatı sığortasının əhəmiyyətindən də bəhs olunaraq bildirilib ki, 2017-ci ildə muxtar respublikanın bütün rayonlarında yerli icra hakimiyyəti orqanları ilə birlikdə kənd təsərrüfatı, xüsusilə bitkiçilik sığortasının əhəmiyyəti barədə izahat-məlumatlandırma işləri aparılıb və 1356 vətəndaşla kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası üzrə müqavilə bağlanılıb.

İclasda rayon dövlət sığorta agentliklərinin direktorları çıxış edərək görülmüş işlər haqqında məlumat veriblər.

* * *

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində keçirilən kollegiya iclasını komitənin sədri Əsgər Əsgərov açaraq məruzə edib.***



Bildirilib ki, ötən il su istifadəçilərinə mexaniki üsulla və öz axını ilə 253,7 milyon kubmetr suvarma suyu verilib, təkrar suvarma nəzərə alınmaqla, 212 min 571 hektar torpaq sahəsi su ilə təmin olunub. Torpaq sahələrində su təminatının yaxşılaşdırılması, suvarılan torpaq sahələrinin genişləndirilməsi, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, su itkisinin qarşısının alınması üçün mühüm tədbirlər həyata keçirilib. Rentabelli suvarma şəbəkələrinin qurulmasına, mütərəqqi suvarma metodlarının tətbiqinə üstünlük verilib.

Qeyd edilib ki, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 407 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılıb. Müxtəlif diametrli borularla 4 min 380 metr ana boru xətti və 41 min 680 metr paylayıcı boru xətti çəkilib. Ana boru xətti üzərində diametri 720 millimetr olan 13 ədəd temperatur kompensatoru, müxtəlif diametrli 91 ədəd tənzimləyici və paylayıcı siyirtmə, şəbəkə üzərində 480 ədəd hidrant və 480 ədəd supaylayıcı hovuz, 93 ədəd suburaxıcı quraşdırılıb. Culfa rayonunun Culfa düzü ərazisində suvarmanı yaxşılaşdırmaq, su itkisinin qarşısını almaq, yeni torpaq sahələrini əkin dövriyyəsinə daxil etmək məqsədilə diametri 250 millimetr olan borularla 2070 metr, diametri 620 millimetr borularla 140 metr yeni suvarma boru xətti çəkilib. Ümumilikdə, ötən il ərzində muxtar respublika ərazisində 76,7 kilometr yeni suvarma boru xətti çəkilib, 41,8 kilometr suvarma boru xətti əsaslı təmir olunub.

Bildirilib ki, ötən il ərzində muxtar respublika üzrə 243 kilometr beton və torpaq kanal, 457,6 kilometr ara arxlar lildən təmizlənib.

Vurğulanıb ki, muxtar respublika ərazisində əhalinin içməli su təminatını yaxşılaşdırmaq üçün ötən il 11,7 kilometr yeni içməli su xətti çəkilib, 0,15 kilometr yeni kaptaj tikilib, 88,7 kilometr içməli su xəttində və 2,5 kilometr kaptajda təmir-bərpa işləri aparılıb. Bəhs olunan dövrdə təmir sexlərində müxtəlif markalı 12 ədəd avtomaşın, 9 ədəd avtokran, 12 ədəd elektrik mühərriki, 4 ədəd ekskavator, 2 ədəd buldozer, 1 ədəd nasos, 4 ədəd vakuum nasos, 13 ədəd əks klapan, 9 ədəd nasos rotoru, 20 ədəd subartezian nasosunun rotoru, 2134 ədəd su sayğacı, 958 ədəd müxtəlifadlı nasos hissələri təmir olunub.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



***Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində keçirilən kollegiya iclasını idarənin rəisi Mehman Məmmədov açaraq məruzə edib.***

Bildirilib ki, 2017-ci ildə Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsi və tabeliyindəki təşkilatlar "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununu, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 28 iyul tarixli Fərmanı, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 15 may tarixli Qərarı ilə təsdiq edilmiş "Dövlət arxivlərinin maddi-texniki bazasının gücləndirilməsi və işçilərinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə göstərdiyi xidmətlərə görə Ödənişlər"in və həmin vəsaitin istifadə edilməsi, uçota alınması və hesabatın təqdim edilməsi Qaydaları"nı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin əmr, sərəncam və göstərişlərini əldə rəhbər tutaraq fəaliyyət göstərib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin tədbirlər planına uyğun olaraq 5 rayon dövlət arxivində (Şahbuz, Şərur, Kəngərli, Babək, Ordubad) kompleks yoxlamalar və ictimai baxış keçirilərək, iş planlarının yerinə yetirilmə vəziyyəti, görülmüş işlərin keyfiyyəti və vətəndaşlar tərəfindən daxil olan sosial-hüquq xarakterli ərizə və sorğulara verilmiş arxiv arayışları yoxlanılaraq analiz edilib, müəyyən edilmiş nöqsan və çatışmazlıqlar rayon dövlət arxivləri müdirlərinin diqqətinə çatdırılaraq aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülüb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin və rayon dövlət arxivlərinin 2017-ci ildə görülmüş işlərin yekunlarına dair təqdim etdikləri hesabatlar təhlil edilib, hər bir rayon dövlət arxivi üçün ayrılıqda, həm də ümumrespublika üzrə yekun nəticələr planın müvafiq maddələri üzrə faizlərlə müəyyənləşdirilib.

**Xəbərlər şöbəsi**

**Ö***tən əsrin 80-ci illərinin sonunda dünyanın siyasi həyatında baş verən ən mühüm dəyişikliklərdən biri SSRİ kimi böyük imperiyanın dağılması idi. 70 illik sovet idarəçiliyinin iflasa uğramasının səbəblərindən biri imperiya çətiri altında yaşayan çoxsaylı xalqların müstəqillik arzusu olsa da, bu mübarizədə ən böyük rolu Azərbaycan xalqı oynamışdır. Ötən əsrin sonlarında öz müstəqillik ideyalarını ikinci dəfə tarixin səhifəsinə inamla daşıyan Azərbaycanda bu ideyaların ilk işığı qədim Naxçıvanda yandırılmışdır. 1989-cu ilin dekabr ayında muxtar respublikada SSRİ sərhədlərinin dirəklərinin sökülməsi Moskvanı bərk hiddətləndirmişdir.***

# Naxçıvan müstəqillik uğrunda mübarizənin ön cərgəsində olub

1990-cı il yanvarın 20-də Bakıda törədilmiş qanlı faciə xalqımızın gözünü qorxutmaq, onu müstəqillik ideyalarından əl çəkməyə vadar etmək idi. Faciədən 8 saat əvvəl ermənilərin Sovet qoşunlarının köməyi ilə muxtar respublikaya hücum etməsi də bu hərəkatda ön mövqedə dayanan Naxçıvanı cəzalandırmaq və işğal etmək məqsədi daşıyırdı. Bir müddət əvvəl güclü atəşə məruz qalan Sədərək, Havuş, Günnüt kəndləri 1990-cı il yanvarın 19-da səhər, təxminən, saat 11-dən etibarən daha intensiv hücumlara məruz qalmışdı. Həmin vaxt ermənilər əsas qüvvələrini Sədərək istiqamətinə yönəldərək Kərki kəndini işğal etdilər. Muxtar respublikaya müxtəlif istiqamətlərdən hücumların təşkili onu göstərirdi ki, SSRİ rəhbərliyi məhz yanvarın 19-da Bakıya qoşun yeridiləcəyi və bununla da Naxçıvanın köməksiz qalacağını əvvəlcədən planlaşdırmışdı. Sonrakı proseslərdə isə Naxçıvan qısa müddətdə işğal olunmalı, bura erməniləri yerləşdirməklə Azərbaycanın Türkiyə ilə quru sərhədi kəsilməli idi.

Təbii ki, Naxçıvanın ərazi bütövlüyünün pozulması, sərhədboyu yaşayış məntəqələrində ermənilərin hücuma keçməsi, əhalinin yaşayışı üçün real təhlükənin artması, nəqliyyat və kommunikasiya blokadası, bunların müqabilində ittifaq və respublika hakimiyyət dairələrinin fəaliyyətsizliyi muxtar respublika sakinlərini qəti qərar qəbul etməyə, ciddi addımlar atmağa sövq etmişdir. Yanvarın 19-da axşam saatlarında Naxçıvan şəhərində Ali Sovetin binası qarşısında toplaşan on minlərlə adam Naxçıvana olan hücumlara etiraz əlaməti olaraq Ali Sovetin fövqəladə sessiyasının çağırılmasını təkidlə tələb etdilər. Nəticədə, həmin gün sessiya keçirilmiş və "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında yaranmış ictimai-siyasi vəziyyət haqqında" məsələ müzakirəyə çıxarılmış, Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxması barədə qərar qəbul olunmuşdur. Qərarda göstərilirdi ki, muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan edir. SSRİ imperiyasının fəaliyyət göstərdiyi bütün dövrlərdə və yaxud mövcudluğunun son dönəmlərində heç bir müttəfiq respublika, diyar və yaxud muxtar region belə bir cəsarətə imza atmamışdı. Bunu yalnız azadlıq və müstəqillik uğrunda həyatını qurban verməyə hazır olan Naxçıvan Muxtar Respublikası sakinləri edə bilərdilər.

Qeyd etmək lazımdır ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda xalqımızın müstəqillik arzularının bu səviyyəyə yüksəlməsində ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Görkəmli dövlət xadimi hələ ölkəmizdə təhlükəsizlik orqanlarında işlədiyi dövrdən ermənilərin torpaqlarımıza qarşı əsassız iddialarının hər an baş qaldıra biləcəyini, bu yolda öz havadarlarının köməyindən necə faydalanacağını, ümumilikdə isə tarixən bu mənfur millətin Rusiya dövlətçiliyinin maraqlarının qorunmasında necə bir alət olduğunu gözəl bilirdi. Buna görə də dahi şəxsiyyət ölkəmizə rəhbərliyinin birinci dövründən başlayaraq Azərbaycanın gələcək müstəqilliyi üçün bir sıra mühüm addımlar atmışdır. Belə addımlardan biri də ölkədə milli kadr hazırlığı idi. İdarəçilik təcrübəsində daim haqq-ədalətin yanında olan böyük öndər, eyni zamanda atdığı mühüm addımlarla milli şüurun yüksəlməsinə və canlanmasına şərait yaratmışdır. Azərbaycanlı olmağı ilə fəxr edən dahi şəxsiyyət fəaliyyəti ilə xalqımıza milli hədəflərə necə çatmağın yollarını öyrətmiş, azadlığın, müstəqilliyin onun üçün hər şeydən uca olduğunu müəyyənləşdirmişdir. Bu baxımdan 1990-cı ilin yanvar ayının 19-da Naxçıvan MSSR Ali Sovetinin qəbul etdiyi qərar ümummilli liderimizin ölkəmizə rəhbərliyinin birinci dövründə həyata keçirdiyi tədbirlərlə Azərbaycan xalqına aşıladığı cəsarətdən, müstəqillik ideyalarından qaynaqlanırdı.

1990-cı ildə Naxçıvanın işğal təhlükəsindən qorunmasında, həmin tarixi qərarın qəbul edilməsində bölgənin muxtariyyət statusu çox mühüm rol oynamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu barədə demişdir: ***"Ötən əsrin 90-cı illərində – bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı bir dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasına, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasına, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanmasına imkan yaratmışdır. 1990-cı il yanvarın 18-də SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə muxtar respublikanın Kərki kəndi ermənilər tərəfindən işğal olunandan sonra, yanvarın 19-da Naxçıvan Ali Soveti "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında yaranmış ictimai-siyasi vəziyyət haqqında" məsələni müzakirəyə çıxartmış, "Naxçıvanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığından və beynəlxalq Qars müqaviləsinin şərtləri kobud şəkildə pozulduğundan" Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etmişdi. Bu qərar Sovetlər Birliyinin dağılması, Azərbaycan xalqının və digər müttəfiq respublikaların xalqlarının suverenlik əldə etməsi üçün atılmış ilk addımlardan idi".***

Bakıdakı Qanlı Yanvar qırğınından sonrakı dövr blokada vəziyyətində olan Naxçıvanda da çox gərgin keçmişdir. Təkcə 1990-1993-cü illərdə ermənilərin Sədərəyə təşkil etdikləri 14 hücum əməliyyatı zamanı bu sərhəd yaşayış məntəqəsində 109 nəfər şəhid olmuşdur. Məhz belə bir çətin dövrdə – 22 iyul 1990-cı ildə ulu öndər Heydər Əliyev Naxçıvana gəlmiş və naxçıvanlılar ümummilli liderin ətrafında sıx birləşərək bu qədim Azərbaycan diyarını mərdliklə qorumuşlar. 1991-ci il sentyabrın 3-də görkəmli dövlət xadimi Heydər Əliyev əhalinin ciddi təkidi ilə muxtar respublikanın Ali Məclisinə Sədr seçilmişdir. Bundan cəmi 4 gün sonra muxtar respublikanın müdafiəsi məqsədilə sentyabrın 7-də Dövlət Müdafiə Komitəsi təşkil olunmuşdur. Qars müqaviləsinin şərtlərinin yerinə yetirilməsi ilə bağlı Türkiyə tərəfi ilə danışıqlar aparılmış, Türkiyə hökuməti Ermənistanın Naxçıvana təcavüzü ilə əlaqədar bəyanat vermişdir.

Ümummilli liderimiz Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə muxtar respublikanı işğaldan, məhv olmaqdan, düşmən əlinə keçməkdən xilas etməklə Naxçıvana yeni bir həyat bəxş etmişdir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandan başlanan müstəqillik hərəkatı bütün Azərbaycan siyasi mühitində aparıcı siyasi qüvvəyə çevrilməklə milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxarmışdı. Üçrəngli bayrağımız ilk dəfə milli liderin rəhbərliyi ilə Naxçıvan parlamentində qaldırılmış, Sovetlər Birliyinin süqut etmədiyi bir vaxtda cəsarətli addım atılaraq Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmışdı. Sovet qoşun hissələri və sərhəd dəstələri onlara məxsus silah-sursat və texnikanın Naxçıvanda saxlanılması şərtilə buradan çıxarılmış, onların bazasında ilk milli ordu yaradılmışdır. Dahi şəxsiyyətin rəhbərliyi ilə dövlətçiliyimiz naminə həyata keçirilən işlər təkcə bununla məhdudlaşmırdı. 20 Yanvar faciəsinə də ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisində siyasi qiymət verilmiş, həmin günün "Milli Matəm Günü" kimi qeyd olunması, qərara alınmışdır.

*Ümumiyyətlə, ötən əsrin 90-cı illərinin əvvəllərində ulu öndərin rəhbərliyi ilə Naxçıvanda həyata keçirilən tədbirlər, qəbul olunan qərarlar müstəqil Azərbaycanın dövlət quruculuğu yolunda mühüm əhəmiyyətə malik olmuşdur.*

**"Şərq qapısı"**

# Tariximizin şərəf və qəhrəmanlıq səhifəsi



***Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Yeni Kərki Kənd Mərkəzində 1990-cı il 20 Yanvar faciəsinin 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirib. Mərasim iştirakçıları əvvəlcə Azərbaycanın istiqlaliyyəti və müstəqilliyi uğrunda qurban getmiş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.***

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva bildirib ki, ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə törədilən qanlı faciə istiqlaliyyət, suverenlik, müstəqillik uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının apardığı mücadilənin unudulmaz səhifəsidir. Sovet imperiyası rəhbərliyinin 20 Yanvar faciəsini törətməkdə məqsədi Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin qarşısını almaq, milli azadlıq hərəkatına zərbə vurmaq idi. Həmin gecə 147 nəfər Azərbaycan vətəndaşı şəhid olub, 744 nəfər yaralanıb və xəsarət alıb, 841 nəfər qanunsuz həbs edilib.

Qeyd olunub ki, 20 Yanvar hadisələri və xalqımızın başına gətirilmiş faciələr haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında ulu öndər Heydər Əliyevin xidmətləri misilsizdir. Bu faciə ilə bağlı etiraz səsini ilk olaraq Moskvada xalqımızın böyük oğlu ucaldıb. Hadisələrin ertəsi günü Azərbaycanın Moskvadakı Nümayəndəliyinə gələn ümummilli lider orada bəyanatla çıxış edərək Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçılarının və icraçılarının cəzalandırılmasını tələb edib. Ulu öndər Heydər Əliyev bununla, ilk növbədə, vətəndaşlıq borcunu yerinə yetirib, milli mövqeyini nümayiş etdirib.

Ümummilli lider Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra 1994-cü ildə ilk dəfə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilib və cinayəti törədənlərin adları ictimaiyyətə açıqlanıb.

Sevda Quliyeva bildirib ki, bu hadisənin qurbanları, şəhid ailələri bu gün də unudulmur, onların sosial təminatının gücləndirilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikada da bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir.

Tədbirdə Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədr müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Ehtimad Məmmədov, təşkilatın şura üzvü Tahir Məmmədov, Yeni Kərki kənd ərazi ilk partiya təşkilatının sədri Ülviyyə Taharova, Yeni Kərki kənd tam orta məktəbinin direktoru Təhminə Hümbətova çıxış edərək bildiriblər ki, 20 Yanvar tariximizin qəhrəmanlıq səhifəsi, Azərbaycanın milli azadlıq hərəkatının yüksəliş günüdür.

Tədbirdə məktəblilər 20 Yanvar faciəsinə həsr olunmuş şeirləri bədii qiraət ediblər.

Sonda 20 Yanvar faciəsinə həsr olunmuş videomateriala baxış olub.

* * *

*Naxçıvan Dövlət Universitetində "20 Yanvar faciəsi tariximizin şərəf və qəhrəmanlıq səhifəsidir" adlı elmi-praktik konfrans keçirilib.*

Əvvəlcə universitet tələbələrinin qanlı faciəyə həsr olunmuş rəsm əsərlərindən ibarət sərgiyə baxış olub.

Təsviri incəsənət kafedrasının müdiri, Azərbaycan Respublikasının Xalq rəssamı, dosent Hüseynqulu Əliyev əsərlər haqqında məlumat verib. Sərgidə keçmiş sovet qoşunlarının ölkəmizə yeridilməsinin acı nəticələrini və dinc əhaliyə qarşı törədilmiş amansız cinayətlərini özündə əks etdirən əsərlər yer alıb.

Konfransda əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbiri açaraq 28 il əvvəl müstəqillik və suverenlik uğrunda mübarizəyə qalxmış xalqımızın başına gətirilən faciədən danışıb. Qeyd edilib ki, Azərbaycanın müasir tarixinə xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olan 20 Yanvar hadisələrinə yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 1994-cü ildə siyasi-hüquqi qiymət verilib.

Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Nadir Hüseynbəyli çıxışında bildirib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə keçmiş Sovet İttifaqının qoşun hissələrinin yeridilməsi nəticəsində dinc əhaliyə divan tutulub, onlarla insan öldürülüb. Bakıda və Azərbaycanın rayonlarında hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilib.

Tədbirin ədəbi-bədii hissəsində tələbələrin ifasında şəhidlərə həsr olunmuş şeirlər və mahnılar səslənib.

Sonda film nümayiş olunub.

# Çağırışçı gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib



"Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 1 dekabr tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.

Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Azərbaycan Respublikası Müharibə Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatı Naxçıvan Şəhər Şöbəsinin sədri Sultan İsmayılov və Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov çıxış edərək hərbi xidmətə yola salınanlara uğurlar arzulayıblar.

Valideyn Dünyamalı Babayev çağırışçı gənclərə xoş arzularını çatdırıb. Çağırışçılar adından çıxış edən Amal Abasquliyev Vətənə xidmət etməyin onlar üçün ən ali borc olduğunu bildirib, bu borcu şərəflə yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədov çıxışında qeyd edib ki, orduda xidmət etmək Vətənə xidmətdir. Xalq-ordu birliyi imkan verir ki, biz müstəqilliyimizi daha inamla qoruyaq.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik-leytenant Sultan Zamanov çıxış edərək bildirib ki, Azərbaycan dövləti inkişaf edib qüdrətləndikcə ordumuz da güclənir. Güclü ordu isə düşməni hər an yerində oturtmağa qadirdir. Bizim ordumuzun yüksək əhval-ruhiyyəli əsgərlərinin, güclü maddi-texniki bazasının olması düşmənə gözdağıdır. İnanırıq ki, bu gün hərbi xidmətə yola saldığımız gənclər ordumuzun qorxmaz, cəsur və layiqli əsgərləri olacaqlar.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Həmin gün Babək rayonunda da gənclər hərbi xidmətə yola salınıblar.

**Xəbərlər şöbəsi**

***Cənubi Qafqazın, Azərbaycanın xəritəsinə baxanda Sədərək kiçik bir nöqtə kimi görünür. Lakin Türk dünyasını bir-birinə bağlayan bu bölgənin əhəmiyyətini dərk etmək üçün, sadəcə, bir məqama diqqət yetirmək kifayətdir. 1990-cı ilin yanvarında sovet imperiyasının işğalçı qoşunları Bakıya hücum etdikləri vaxtda onun əlaltısı olan Ermənistanın quldur dəstələri də Sədərəyi ələ keçirməyə çalışırdılar.***

# Azadlığın rəngi

1990-cı ilin yanvarında soyuq qış gecəsində Bakıda güllələbaran edilmiş günahsız insanların qulaqbatıran fəryadları təkcə yerin deyil, göyün də bağrını yarırdı. Lakin, nədənsə, bu haraylar bəzi yatmış vicdanları oyatmırdı. Müasir silahlarla silahlanmış ordu əliyalın, günahsız insanların üzərinə hücuma keçir, dinc əhaliyə ağır divan tuturdu. Düşmən Sədərəkdə də eyni vəhşilikləri törətməyə çalışırdı. Amma xalqın azadlıq və istiqlaliyyətini boğmaq istəyən imperiya dairələrinə igid oğullarımız öz qanı bahasına cavab verirdi.

Həmin illərdə Naxçıvan olduqca gərgin günlər yaşayırdı. Sərhədyanı kəndləri ermənilər tərəfindən işğal və qarət olunan, dincliyi əlindən alınan Naxçıvan ulu öndər Heydər Əliyevin dediyi kimi, *"Taleyin ümidinə buraxılmış tənha ada"*nı xatırladırdı. Azadlıqdan məhrum olunmağa məcbur edilən xalq ov tüfənginə sarılaraq mərdliklə, rəşadətlə döyüşüb, torpaqlarımızın bütövlüyü uğrunda canını sipər edib əsl qəhrəmanlıq nümunəsi göstərirdi.

O qanlı-qadalı günlərin ağrı-acılı, eyni zamanda qürurla yad edilən hekayələrini Sədərək döyüşçülərinin şahidlərindən dinləyirəm. Sədərəklilərlə həmin günlər haqqında söhbət edərkən o zaman getdikcə gərginləşən bir vəziyyətdə ermənilərin hər an sərhəd kəndinə hücum edə biləcəyi ehtimalının artması, yerli əhalinin uşaqdan-böyüyə bir olub Naxçıvanın hər yerindən gələn el köməyinin də gücü ilə düşmənə layiqincə cavab verməsi bir daha gözlərim önündə canlanır.

Sədərəkli bir qadının söylədikləri isə qəlbimi riqqətə gətirir. Kəndə hücumların səngidiyi bir vaxtda səngərdə döyüşən həyat yoldaşı kənddə qalmış ailəsini güllə yağışının altından daha təhlükəsiz yerə çıxarmaq üçün evinə gəlir. Qadının isə cavabı qəti olur: "Nə qədər ki biz bu kənddəyik, sənin torpağı qorumaq istəyinin üzərinə bir də ailəni, övladını və namusunu qorumaq vəzifəsi gəlir. Doğma ocağımız olmadıqdan sonra biz yaşasaq, nə dəyişər! Get və elə döyüş ki, bizi kənddən çıxarmaq məcburiyyətində qalma".

Erməni canilərinin misligörünməmiş vəhşiliklərinin digər bir şahidi Sədərək kənd sakini Ramiz İbrahimov da ağrılı-acılı o günləri yad edir. Həmin günləri göz yaşları ilə xatırlayan Ramiz müəllim Oğuz yurdunun ilk şəhidi olan günahsız körpələr – Malik və Elvin Nəsirov qardaşları haqqında ürəkağrısıyla danışır: – Yanvar ayının 19-u, günorta vaxtı idi. Düşmən kəndi top atəşinə tutur, muxtar respublikanın ən böyük kəndi olan Sədərəyi ələ keçirmək istəyirdi. Sədərəyə yağan top mərmilərindən biri elə həyət darvazasının yanındaca 6 yaşlı Elvin və 4 yaşlı Malik qardaşlarını qanına qəltan etdi. Həmin vaxt bu günahsız körpələrin atası Tofiq Nəsirov kəndin qeyrətli oğulları ilə birlikdə Sədərəyə dolmaqda olan vəhşi ermənilərin hücumunun qarşısını alırdı. Oğlunun ölüm xəbərini eşidən ata Vətənin müdafiəsinin oğul itkisindən üstün olduğunu düşünərək Sədərəyin ən odlu nöqtəsi olan Qırmızılar dağındakı səngərdən enmək istəmədi. Dəstənin rəhbəri Vəli Kərimov Tofiqi kömək gətirmək adı ilə Sədərəyə yolladı. Körpə şəhidlərin atasının günahsız qurbanların dəfni zamanı bu sözləri hələ də qulaqlarımdan getmir: "Mənim şəhid olan cüt oğlumun ölümünə görə kim mənə təsəlli vermək istəyirsə, silahı götürüb arxamca gəlsin Qırmızılar dağına. Şəhidlərimizin ruhunu yalnız yurdumuzu qorumaqla şad edə bilərik".

Düşmən nə qədər məkrli, nə qədər silahlanmış olsa da, o, torpağa bağlı, amalı bir olan insanları heç zaman qorxuda bilməz. Bir vaxtlar güllə səslərindən qulaq tutulan, mərmi yağışından həyət-bacaları dağılan "Qeyrət qalası" Sədərəyi qoruyan hünərli oğullara bata bilməyən mənfur düşmənlər bu gün səksəkədədirlər. Çünki bir zaman Vətən yalnız xalqın iradəsinin, mərdliyinin, yurda bağlılığının, torpağa sədaqətinin hesabına qorunurdusa, bu gün həm də sərhəddə ayıq-sayıq dayanan əsgərlərin, müasir texnikaya malik ordunun və dövlətin böyük qayğısının gücü ilə qorunur.

Sədərəyin bugünkü büsatını o günlərin mənəvi yaralarına, ağrı-acılarına məlhəm çəkən sakinlərlə bu qədim yurdun xoş günlərini gördükcə ürəyimiz dağa dönür. Bir zamanlar sabaha ümidləri qalmayan sədərəklilər bu gün daha xoş günlərə, aydın sabahlara, parlaq gələcəyə doğru inamla irəliləyirlər. Bu inamı isə onlara güclü, sarsılmaz, müstəqil Azərbaycan dövləti verir.

...Gözlərim Sədərəyin sinəsində ucalan və qürurla dalğalanan üçrəngli bayrağımıza zillənib. Sanki o döyüşlər zamanı Sədərəkdə qazi və şəhid olan oğullarımızın qanının rəngi əks olunub bu bayraqda. Bəli, qan da qırmızıdır, azadlığın qırmızısı! Bu rəng eynilə Sədərək kimi iki türk elinin bayraqlarını bir birinə bağlayır.

**Gülcamal TAHİROVA**

## Gənclər Xatirə Muzeyində olublar



***20 Yanvar faciəsi ərəfəsində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə bir qrup fəal gəncin Xatirə Muzeyinə ekskursiyası təşkil edilib. Ekskursiyanın məqsədi gəncləri xalqımızın qəhrəmanlıq tarixi ilə tanış etmək olub.***

Tədbirdə əvvəlcə nazirliyin yaradıcı gənclərlə iş üzrə baş məsləhətçisi Kənan Tağızadə, Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin direktoru Səyyar Məmmədov çıxış edərək bildiriblər ki, Azərbaycan xalqı öz qəhrəman övladlarının əziz xatirəsini həmişə uca tutur və dərin ehtiramla yad edir. Xalqımızın tarixində elə hadisələr vardır ki, qəlblərimizdə əbədi yaşayır və azadlığın rəmzinə çevrilir. Bu mənada, 20 Yanvar xalqımızın tarixində qürur və iftixar rəmzidir. Gələcək nəsillər də onların qəhrəmanlığını ehtiramla xatırlayacaqdır.

Gənclərin muzeylə tanışlığı zamanı onlara bildirilib ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 1997-ci ildə yaradılıb, 2000-ci ilədək Şəhidlər Muzeyi adı ilə fəaliyyət göstərib. 8 avqust 2000-ci ildən etibarən muzey Xatirə Muzeyi adlanır. Hazırda muzeydə 2000-dən çox eksponat vardır. Onlardan 350-yə qədəri ekspozisiyada nümayiş etdirilir.

Qeyd edilib ki, Azərbaycanda baş verən soyqırımlara ilk siyasi-hüquqi qiymətı ümummilli lider Heydər Əliyev verib.

Muzeydə torpaqlarımızın azadlığı və müstəqilliyi uğrunda xalqımızın apardığı mübarizəni əks etdirən sənədlər, tarixi eksponatlarla tanışlıq gənclərdə böyük təəssürat yaradıb.

**Əli RZAYEV**

*İdman*

## Şahmatımızda yeni ad:
## FİDE idman ustası Sadiq Məmmədov

***Şahmat – zəka və gücün, iradə və konstruktiv ideyaların, nisbətən sakit və sürətli hesablamaların harmoniyasıdır. Kənarda asan görünən döyüş, əslində, daxildə çətin olur. Hindistanlı şahmatçı Tanya Saçdevin dediyi kimi: "Bu, beynində sirkə bənzəyir". Oyunçu planlaşdırmalı və strategiya işlətməli, gedişləri əvvəlcədən hesablamalı, problemləri həll etməli, mübarizə aparmalı və daha pis mövqelərin qarşısını almalıdır. Bu, zəka döyüşünə bənzəyir. Beyin daima yeni manevrlər üzərində düşünməli olur.***



Dünya idman ictimaiyyəti son illərdə qazandığı uğurlu nəticələrinə görə Azərbaycanı şahmat ölkəsi adlandırır. Əslində, zəka oyununu bu qədər mükəmməl oynamağımız bizim yalnız güləşmək, döyüşmək yox, həmçinin dərindən düşünmək, uzaq perspektivə hesablanmış planlar qurmaq bacarığımızın olduğunu bir daha sübut edir. Müasir şahmat problemi rəqabətə əsaslanaraq həll edir. Burada rəqibin və sizin bir məqsədiniz var – qalib gəlmək. Alimlərin apardığı araşdırmalar göstərir ki, şahmat insanın həyatı boyu istifadə etdiyi fikri cəmləşdirmə, mənfi və müsbət düşünmə, mücərrəd düşüncə, təsvirin tanınması, strateji planlama və yaradıcılıq, əqli bacarıqlarını inkişaf etdirən sonsuz zəka imkanlarının məşqidir.



Bu gün Naxçıvan güc idman növləri ilə yanaşı, beyin idmanında da böyük nümayəndələr yetişdirib və bu, gündən-günə artmaqdadır. Onlardan biri də Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yetirməsi Sadiq Məmmədovdur.

2003-cü ildə Naxçıvan şəhərində anadan olan Sadiq kiçik yaşlarından könlünü şahmata verib. Artıq 8 yaşında Neftçala rayonunda keçirilən Azərbaycan çempionatının seçmə yarışlarında iştirak edən zəka sahibimiz elə burada ilk uğuruna imza atıb. Uğurlu çıxış onun beynəlxalq karyerasının başlamasına şərait yaradıb. Həmin qələbədən bir il sonra şahmatçımız Gürcüstanın Kutaisi şəhərində təşkil olunan Avropa kubokunda iştirak edib. 2013-cü ildə zəka sahibimiz daha bir uğura imza atıb. O, Balakən şəhərində keçirilən Respublika Şahmat Olimpiadasında bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb. Bundan sonra şahmatçımız Gürcüstanın Ureki şəhərində keçirilən Avropa kubokuna yollanıb. Uğurlu çıxış onun aktivinə əlavə əmsalların yazılması ilə nəticələnib.

Ölkədaxili yarışlarda nailiyyətlər əldə edən Sadiq Məmmədov İranın Rəşt, Urmiya, Təbriz, Türkiyənin Bitlis, Ankara, Malatya və Kahramanmaraş şəhərlərində keçirilən beynəlxalq turnirlərdə mükafatçılar sırasına da düşməyi bacarıb. 2014-cü və 2015-ci illərdə Gürcüstanın Batumi şəhərində Avropa çempionatında, Yunanıstanın Kavala şəhərində məktəblilərin Avropa çempionatında və Xorvatiyanın Poreç şəhərindəki qitə birinciliyində mübarizə aparan zəka sahibimiz kifayət qədər təcrübə toplayıb. Bu illər ərzində o, Azərbaycan çempionatında gümüş medal qazanıb və Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən gənc ulduzların qrossmeysterləri ilə seans yarışlarında uğurla çıxış edib.

Müəllimlərinin fikrincə, Sadiq Məmmədov oyun tərzinə görə konkret sistemə sadiq qalmayan biridir. Daim yenilik axtaran gənc şahmatçımız qrossmeysterlərlə başabaş mübarizə aparmağı daha çox sevir. Şahmatçımızın öz dili ilə desək: – Şahmat mənə çox şey qazandırıb. Bu oyunu mən idman kimi yox, həm də peşə kimi sevirəm. Rəqibimdən asılı olaraq oyunda gedişim fərqli olur, dəqiq desəm, oyundan zövq almağa çalışıram. Yarışlarda ilk oyunum həmişə fərqli olur, daha sonra digər rəqiblərə görə bunu dəyişirəm. Təbii ki, oyun üslubumu necə seçməyimi, hansı gedişlərdə düzgün addım atmağımı müəllimlərim öyrədir.

Sadiq Məmmədov ötən il dəfələrlə respublika səviyyəli yarışlarda iştirak edib və qalib adını qazanıb. 2017-ci ildə ilk dəfə olaraq Azərbaycan çempionu adını qazanan zəka sahibimiz elə Rumıniyanın Mamaya şəhərində keçirilən qitə birinciliyində və Türkiyənin Konya şəhərində məktəblilərin Avropa çempionatında ölkəmizi təmsil edib.

Oyun statistikası və bir çox yarışda iştirakı Sadiqin oyunlarda müəyyən cizgilərini ortaya qoymağa imkan yaradır. Nəticə isə göz qabağındadır: Sadiq Məmmədov 2017-ci ildə – cəmi 7 ilə FİDE idman ustası normativini yerinə yetirib.

Şahmatçı hazırda Bakı şəhərində keçirilən Azərbaycan çempionatında mübarizə aparır. Əsas məqsəd ölkə birinciliyində qalib olub mart ayında keçiriləcək dünya çempionatına vəsiqə qazanmaqdır. O, artıq bu yaşında karyerasına zirvə yolunu tutub. Həyatdan və sevimli oyunundan maksimum zövq almağa çalışan, oxuduğu Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə hamının sevimlisi olan, gülərüz kimi tanınan zəka sahibimizin, FİDE ustamızın fəthləri hələ qabaqdadır. Buna görə indi əminliklə deyə bilərik: Naxçıvan şahmatı heç vaxt tacsız qalmayacaq!

## Karateçilərimiz ilə uğurla başladılar

***Bakı şəhərindəki Heydər Əliyev adına İdman və Konsert Kompleksində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş karate-do üzrə beynəlxalq turnir keçirilib.***



Azərbaycan Milli Karate Federasiyası və "Arpaçay" Karate Klubunun təşkilatçılığı ilə keçirilən turnirdə İsrail, İran İslam Respublikası, Rusiya, Özbəkistan və Azərbaycan komandaları mübarizə aparıblar. 60 komandanın heyətində 700 karateçinin iştirak etdiyi beynəlxalq turnirdə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 14 (6 qız, 8 oğlan) idmançısı da tatami üzərinə çıxıb.

Yarışın yekun nəticəsinə əsasən 12-13 yaş qrupunda 33 kiloqram çəki dərəcəsində mübarizə aparan Vüsal Seyidov qızıl medal qazanıb. Bu uğuru 14-15 yaş qrupunda (70 kiloqram) iştirak edən Aslan İsmayılov da əldə edib.

Qızların mübarizəsində isə idmançılarımız 5 medal qazanıblar. Belə ki, 8-9 yaş qrupunda Ayan Məmmədova (32 kiloqram) gümüş, 6-7 yaş qrupunda Özləm Hacıyeva (25 kiloqram), 8-9 yaş qrupunda Zəhra Məmmədova (25 kiloqram), 12-13 yaş qrupunda Səmra Məmmədli (45 kiloqram) və 14-15 yaş qrupunda Çinarə Cəlalova (47 kiloqram) bürünc medal qazanıblar.

Sonda qalib idmançılarımıza təşkilatçılar tərəfindən diplom və medallar təqdim olunub.

Qeyd edək ki, yarış ərəfəsində "Əlbəyaxa döyüş – soyuq silahla özünümüdafiə" adlı seminar da təşkil edilib. Seminarda çıxış edən Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədr müavini Nəriman Quliyev 4-cü Dan qara kəmər ustası adını qazanıb.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 61